**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2218-4783.2026.1.51**

# NAXÇIVAN ŞƏHƏRİNİN TARİXİ COĞRAFİYASI (XIX-XX ƏSRİN ƏVVƏLLƏRİ)

# HISTORICAL GEOGRAPHY OF THE CITY OF NAKHCHIVAN (19th-early 20th centuries)

**Nurlana ƏLİYEVA***

## XÜLASƏ

Məqalədə XIX-XX əsrin əvvəllərində Naxçıvan şəhərinin tarixi coğrafiyasından bəhs olunur. Tədqiq edilən dövrdə Naxçıvan şəhəri eyni adlı diyarın əsas inzibati-siyasi mərkəzi və ən iri şəhəri idi. Şərqin ən böyük mədəniyyət ocaqlarından biri olan Naxçıvan şəhəri e. ə. III minillikdə bu diyarda yaranmış qüdrətli tayfa ittifaqının mərkəzi olaraq inkişaf tapmışdır. Şəhər Araz çayının sol qolu olan Naxçıvançayının sağ sahilində dəniz səviyyəsindən 910 m hündürlükdə yerləşirdi. Bu dövrdə Naxçıvan şəhərinin ərazi-sərhəd bölgüsü dəyişməmişdir. Bu dövrdə Naxçıvan şəhəri Erməni vilayətinin, İrəvan quberniyasının və Cənub-Qərbi Azərbaycan general qubernatorluğunun əsas mərkəz şəhəri, Araz-Türk respublikasının isə paytaxtı olmuşdur. Məhəllələrinin sayı isə daxili və xarici köçürmələrdən sonra artmışdır.

**Açar sözlər:** *Naxçıvan şəhəri, XIX-XX əsrin əvvəlləri, tarixi coğrafiya, Naxçıvançay, paytaxt, məhəllə.*

## ABSTRACT

This article discusses the historical geography of the city of Nakhchivan in the 19th to early 20th centuries. During the period under study, the city of Nakhchivan was the main administrative-political center and the largest city of the region of the same name. As one of the largest cultural centers of the East, the city of Nakhchivan developed as the center of a powerful tribal union that emerged in this region in the 3rd millennium BCE. The city was situated on the right bank of the Nakhchivan River, a left tributary of the Araxes, at an altitude of 910 meters above sea level. During this period, the territorial and boundary divisions of the city of Nakhchivan remained unchanged. In these years, the city served as the main center of the Armenian Province, the Iravan Governorate and the South-Western Azerbaijan Governor-Generalship, and also acted as the capital of the Araks-Turk Republic. The number of its neighborhoods increased as a result of internal and external displacements.

**Keywords:** *Nakhchivan city, 19th-early 20th centuries, historical geography, Nakhchivan River, capital, neighborhood.*

## GİRİŞ

Tədqiq edilən dövrdə Naxçıvan şəhəri eyni adlı diyarın əsas inzibati-siyasi mərkəzi və ən iri şəhəri idi. Şərqin ən böyük mədəniyyət ocaqlarından biri olan Naxçıvan şəhəri e. ə. III minillikdə bu diyarda yaranmış qüdrətli tayfa ittifaqının mərkəzi olaraq inkişaf tapmışdır. Şəhər Araz çayının sol qolu olan Naxçıvançayının sağ sahilində dəniz səviyyəsindən 910 m hündürlükdə yerləşirdi.

Naxçıvan şəhərinin adına və tarixinə aid məmulatlara yunan, latın, ərəb, fars, türk və rus mənbələrində rast gəlinir. Məşhur yunan coğrafiyaşünası Klavdi Ptolemeyin (eramızın II əsri) "Coğrafiya" əsərində Naxçıvanın adı Naksuana (Naxuana) kimi qeyd olunmuşdur. Naxçıvanda VI əsrdə

* AMEA Naxçıvan Bölməsi, e-mail: aliyevanurlana 71@gmail.com
ORCİD: 0000-0003-0345-0739

zərb olunmuş Sasani hökmdarları adına sikkələrin üzərində pəhləvi dilində şəhərin adı "Naxç" şəklində yazılmışdır. Orta əsr ərəb məxəzlərində şəhərin adı Nəxcuan, Nəşava (IX-XI əsrlər), Nəşəvi, Naxçıvan (XI-XII əsrlərdən başlayaraq), Nəxcəvan, Nəxçəvan, Nəqcuan (XI-XVII əsrlərdə), fars mənbələrində Nəxcir kimi verilmişdir [Əliyev, 2012, s. 13].

Digər bir araşdırmada fərqli yanaşmalar olmuş, "Naxçıvan" sözünün Nuhçıxan ifadəsindən yarandığı göstərilmişdir. Mənbədə qeyd edilir ki, Nuh Peyğəmbərin ailəsi və tərəfdaşları Naxçıvan ərazisində quruya çıxmış, burada yurd salmış və Nuh Peyğəmbər Naxçıvan şəhərinin əsasını qoymuşdur. Naxçıvan Nuhçıxanın varisidir, davamıdır. Nuhçıxan şəhərin formalaşması mərhələsi, Naxçıvan isə artıq inkişaf etmiş şəhərdir [Həbibbəyli, 2017, s. 25]. Tarixi mənbələrdə Nuh Peyğəmbərin Naxçıvan şəhərinin əsasını qoyması haqqında məlumatlar vardır [Никитин, 1882, s. 111].

## ŞƏHƏRİN İNKİŞAF TARİXİ

Tədqiqatçıların fikrincə, Orta Tunc dövründə Naxçıvanda güclü tayfa ittifaqları formalaşmış, əhalinin sayı artmış, əkinçilik, maldarlıq, sənətkarlıq əsas təsərrüfat sahələri kimi özünü göstərmiş, mübadilə və ticarət əlaqələri genişlənmişdir. Naxçıvan mədəniyyəti Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələr şəraitində inkişaf edib təşəkkül tapmışdır. İqtisadiyyatın və ticarətin inkişafı Naxçıvan ərazisində şəhər tipli yaşayış məskənlərinin yaranmasına imkan vermişdir. Şəhər mədəniyyətinin yaranması və inkişafı iki mərhələdən keçir: ilkin şəhərsalma mədəniyyəti və inkişaf etmiş şəhər mədəniyyəti [Həbibbəyli, 2012, s. 19]. İlkin şəhərsalma mərhələsindən, yəni protoşəhər dövründən inkişaf etmiş şəhər mədəniyyəti mərhələsinə qədər min illərlə vaxt tələb olunur. Naxçıvan diyarının Ön Asiya qədim Şərqinin inkişaf etmiş sivilizasiyaları ilə qonşuluqda yerləşməsi burada da ilkin şəhər mədəniyyətinin inkişafına təsir etmişdir. Akademik İ. Hacıyev İ.Əliyevə əsaslanaraq yazır ki, Naxçıvan şəhərini "Azərbaycanın ən qədim şəhərlərindən biri hesab etmək üçün kifayət qədər əsas var [Hacıyev, 2019, s. 4]. AMEA-nın müxbir üzvü V.Baxşəliyev yazır ki, Naxçıvan şəhəri e. ə. III minillikdə təşəkkül tapan qədim şəhər mədəniyyətinin ən mühüm mərkəzlərindən biri olmuşdur [Baxşəliyev, 2008, s. 5]. Bütün bu tədqiqatlar XIX əsrdə yazılmış mənbələrin üstündən xətt çəkdi. Belə ki, XIX əsrə aid ədəbiyyat materialları təsdiq edirlər ki, Naxçıvan şəhərinin əsası e. ə. 1539-cu ildə qoyulmuşdur [Никитин, 1882, s. 113]. Lakin müstəqillik illərində aparılan tədqiqatlar göstərdi ki, Naxçıvanda ilkin şəhər mədəniyyəti təxminən 5 min il bundan əvvəl meydana gəlmişdir.

Orta əsrlərdə (X-XII əsrlərdə) Naxçıvan şəhəri daha geniş şəkildə inkişaf edərək paytaxt şəhəri olmuşdur. İlk öncə Nahçıvan şahlığının, sonra isə Atabəylər dövlətinin paytaxtı olmuşdur. Naxçıvan şəhərinin Atabəylər dövlətinin paytaxtı olması ilə bağlı mənbələrdə belə yazılır: Şəmsəddin Eldəniz Naxçıvan vilayətini mülklərinə birləşdirir və iqamətgahını Bərdədən Naxçıvana köçürür. O, sultan sarayından iqta aldığı Arrandan başqa, Azərbaycanın bütün cənub rayonlarını, habelə Naxçıvanı müstəqil idarə etməyi və öz adından pul kəsdirməyə başlayır. 1146-cı ildə Atabəy Naxçıvan vilayətini torpaqlarına birləşdirir və həmin dövrdən başlayaraq Naxçıvan şəhəri və vilayəti Eldəniz nəslinin irsi iqtasına çevrilir. Bəhs edilən dövrün hadisələrində Şəmsəddin Eldənizin adı "Gəncə və Arranın sahibi" (İbn əl-Əsir), "Naxçıvan şəhəri və vilayətinin hakimi" (Mxitar Qoş) kimi çəkilir. Mənbələr Eldənizin bu dövrdə Naxçıvanda möhkəmlənməsi, "daim Naxçıvanda olması" haqqında məlumat verir. XI əsrin II yarısından başlayaraq Naxçıvan şəhəri Səlcuq əmirlərinin əsas iqamətgahlarından biri idi. Yaqut-əl Həməvinin Azərbaycanın böyük şəhəri adlandırdığı "Naxçıvan (Nəşavə)" şəhəri artıq XII əsrin 40-cı illərindən başlayaraq Eldənizlər sülaləsinin nümayəndələri olan Azərbaycan atabəylərinin doğma (xass) mülk-tac şəhərinə çevrilir. Şəmsəddin Eldəniz Möminə xatın və övladları ilə birlikdə burada yaşayır [Hacıyev, 2016, s. 46]. XII əsrdə Naxçıvan şəhəri özünün ən böyük iqtisadi və mədəni yüksəlişi dövrünü keçirmişdir. XI-XII əsrlərdə şəhərin 150-200 min əhalisi olmuşdur [Məmmədov, 1977, s. 61].

Orta əsrlər dövründə Naxçıvan şəhəri Teymurilərin, Cəlairilərin və Qaraqoyunluların, Ağqoyunluların mübarizə meydanına çevrilmişdi. 1501-ci ildən Səfəvilərin idarə sisteminə daxil olmuşdur. Tədqiqatçı alim İ.Əliyev yazır ki, Səfəvilər dövründə Azərbaycanın və bölgənin şəhərləri arasında Naxçıvan şəhəri iqtisadi baxımdan aparıcı yerlərdən birini tutmuşdur. Ancaq müəyyən dövrlərdə Osmanlı-Səfəvi müharibələr, müxtəlif Səfəvi və Osmanlı hökmdarlarının dağıdıcı siyasətləri şəhərə xeyli ziyan vurmuşdur [Əliyev, 2014, s. 114-115].

XVIII əsrin 40-cı illərində Azərbaycan ərazisində müstəqil xanlıqların meydana gəlməsi, başqa yerlərdə olduğu kimi, Naxçıvan bölgəsində şəhər həyatına müsbət təsir göstərmişdir. Naxçıvan xanlığının inzibati mərkəzinə çevrilən Naxçıvan şəhərində, XVIII əsrin ortalarında yaşayış və inzibati binaların bir hissəsi bərpa olunmuş, iqtisadi, ictimai və mədəni həyat müəyyən dərəcədə dirçəlməyə başlamışdı [Budaqova, 1995, s. 73]. Naxçıvan şəhəri xanlığın mərkəzi idi. Naxçıvan şəhəri xanlıqlar dövründə feodal-ara müharibələri və xarici hücumlar nəticəsində ciddi dağıntılara məruz qalmışdı.

XIX əsrdə də Naxçıvan şəhəri uğrunda aparılan mübarizələr şəhərin ciddi dağıntılara məruz qalmasına səbəb olmuşdu. Naxçıvan şəhərinin tarixindəki bu acınacaqlı spiralvari təkrarlanan gedişatı tarixçi V.M.Sisoyev belə ifadə etmişdi: “Təbii ki, Naxçıvan çox qədim şəhərdir. Şəhər X əsrə qədərki dövrdə salınmışdır. Bəlkə də daha qədimdir. Onun sonrakı tarixini qısa sözlə xarakterizə etmək olar. Hər 200-300 ildən bir şəhər özülünə qədər dağıdılırdı. Ancaq hər dəfə yenidən bərpa edilirdi” [Сысоев, 1929, s. 47]. XX əsrin əvvəllərində ermənilər tərəfindən bir neçə dəfə dağıntılara məruz qalmış Naxçıvan şəhəri 1918-1919-cu illərin əvvəllərində Araz-Türk Respublikasının və Cənub-Qərbi Azərbaycan General qubernatorluğunun əsas mərkəzi olmuşdur.

G.Qənbərova XIX əsr mənbələrinə əsaslanaraq yazır ki, Azərbaycanın qədim şəhərlərindən biri olan Naxçıvan şəhəri Naxçıvan əyalətinin əsas şəhərlərindən biridir. Bu şəhər öz coğrafi mövqeyinə görə Qarabağ dağlarının axırıncı aşırımının kənarında, Araz çayının təxminən 8 km şimala doğru, 39 və 40 dərəcə şimal en dairəsi ilə 63 və 64 dərəcə uzunluq dairəsi arasında yerləşərək, şimal tərəfdən Şıxmahmud kəndi ilə şərq tərəfdən Şəkərabad kəndi ilə, cənub tərəfdən Tunbul-Yəmxana kəndi ilə qərb tərəfdən isə Əliabad və Xok kəndi ilə həmsərhəddir. Şəhərin özünün əhatə dairəsi 6 verst (versta – 1,0668 km-ə bərabər ölçü) şəhərə məxsus torpaq sahələri ilə birgə 17 verstdir. Bu sahələrdən istifadə üçün nəsib olan və suvarılan ərazilərin 350 xalvarı hər il əkilir. Şəhərin su ilə təmin edilməsi Naxçıvançaydan şəhərə çəkilmiş və şəhəri iki eyni hissəyə ayıran arx ilə həyata keçirilir [Qənbərova, 2018, s. 42]. Yuxarıda qeyd edilən Naxçıvan qərb tərəfdən Xok kəndi ilə həmsərhəddir fikrinə münasibət bildirərək qeyd etmək istərdik ki, Naxçıvan şəhərinin Xok kəndi ilə sərhəd olmağı demək olar ki, imkansızdır. G.Qənbərova bu məlumatı verəndə çox güman ki, 1831-ci ilə aid arxiv sənədlərini əsas götürmüşdür. Bu sənədlərdə şəhərin sərhədləri aşağıdakı kimi göstərilmişdir: şimaldan Şeyx Mahmud, şərqdən Şəkərabad, cənubdan Tumbul və Yamxana, qərbdən isə Əliabad və Xok mahalı [AzDTA, fond 24, siyahı 1, iş 353, v. 2-3]. Bu arxiv materialında isə Xok kənd kimi yox, mahal kimi göstərilmişdir. Mahalın sahəsi kəndin sahəsindən çox böyük olmuş, özündə bir neçə kəndi birləşdirmişdir. V.Qriqoryevə gəldikdə isə o Naxçıvan şəhərinin Şıxmahmud, Əliabad, Qaraçuq, Bulqan, Tumbul, Qoşadizə kəndləri və şərq istiqamətində Naxçıvançayla həmsərhəd olduğunu yazmışdır [Григорьев, 1833, s. 69].

Naxçıvandan quberniya mərkəzi olmuş İrəvana qədər olan məsafə 139 verst, Tiflisə qədər olan məsafə isə 444 verst idi [AzDTA, fond 24, siyahı 1, iş 353, v. 2]. XIX əsrin 30-cu illərində Naxçıvan şəhərinin əsas hissəsi 6 verstlik ərazidə yerləşirdi [Kazımov, 2007, 69]. Bu isə şəhərin ərazisinin təqribən 10 kvadrat kilometri əhatə etdiyini söyləməmizə imkan verir. V.Qriqoryev ətrafdakı əkin sahələri ilə birlikdə götürüldükdə şəhərin ərazisini 17 verst və yaxud 28, 39 kvadrat kilometr göstərmişdir [Григорьев, 1833, s. 69]. Kameral siyahıların şəhər haqqında məlumatları əks etdirən hissəsində isə bu rəqəm 20 verst olaraq qeyd edilmişdir [AzDTA, fond 24, siyahı 1, iş 353, v. 3].

Yuxarıda qeyd etmişdik ki, bəzi tədqiqatçılar XIX əsrə aid arxiv sənədlərinə əsaslanaraq şəhərin 39º ilə 40º arası şimal enliyində, 63º ilə 64º arası şərq uzunluğunda yerləşdiyi göstərilmişdir. K.Nikitin isə şəhərin koordinatlarını daha da dəqiqləşdirərək yazır ki, XIX əsr Naxçıvan şəhəri 39º12` şimal enliyində, 63º5` şərq uzunluğunda yerləşmişdi.

İ.Kazımbəyli "Qafqaz təqvimi"nin 1895-ci ilə aid məlumatına əsaslanaraq yazır ki, Naxçıvan bölgəsinin ərazisi 3949,04 kv verst sahəni əhatə edir. Bölgənin torpaq sahəsi 347296 desyatinə çatırdı. Naxçıvan şəhəri ərazisi 87, 58 kv verst, torpaq sahəsi, 9123 desyatindir [Kazımov, 2007, s. 88].

XIX əsrin 70-ci illərində Naxçıvan şəhəri Bakı, Şamaxı, Quba, Lənkəran, Yelizavetpol, Şuşa, Nuxa, Zaqatala, Ordubadla birlikdə Şimali Azərbaycanda şəhər statusuna malik olan 10 şəhərdən biri idi. Bu dövrdə Şimali Azərbaycanda rus şəhərsalma mədəniyyətinin təcrübəsi yayılırdı. Tədqiqatçılar bu qənaətdədirlər ki, ən iri şəhərlər olan Bakının, Şamaxının, Naxçıvanın, Gəncənin rus hərbi mühəndisləri tərəfindən tərtib edilmiş planları bu şəhərlərin gələcəkdə hazırlanacaq baş planlarının başlanğıcı olmuşdur [Azərbaycan tarixi, 2007, s. 171].

Şəhərin təbii-coğrafi şəraitinə gəlincə mənbələrdə qeyd edilir ki, şəhər Kiçik Qafqazın silsilələrinin bitdiyi yerdə Arazboyu düzənlikdə yerləşmişdi. Şəhərin cənub hissəsi şəhərətrafı kəndlərlə əhatələnmişdi. Araz çayı bu yaşayış məntəqələrinin cənub hissəsindən keçirdi [Григорьев, 1833, s. 10], şəhər Araz çayından 8 verst şimal məsafədə idi [Никитин, 1882, s. 118].

Başlanğıcını Salvartı dağlarından götürən Naxçıvançay isə şəhəri şərq və cənub tərəfdən əhatələyir, sonra bir neçə qola bölünərək Abbasabad qalası ilə Bulqan kəndləri arasındakı ərazidən keçərək Araz çayına qovuşurdu [Григорьев, 1833, s. 10]. A.Abdullayev mənbələrə əsaslanaraq yazır ki, XIX əsrin 30-cu illərində şəhərin əsas hissəsi ilə Naxçıvançay arasında olan məsafə 2 verst idi [Abdullayev, 2018, s. 34].

Mənbələrin təhlili belə bir qənaətə gəlməyimizə imkan verir ki, XIX əsrin 70-ci illərinə qədər belə şəhərin əsrin əvvəllərindəki simasını o qədər də dəyişməmişdir. Şəhərin ruslar tərəfindən işğalından sonra Naxçıvana gəlmiş rus tədqiqatçıları da bunu sübut edir. V.Qriqoryev yazır ki, şəhərin ortasından Naxçıvançaydan çəkilmiş xəndəklər (su kanalları) keçirdi ki, bunlar da şəhərdəki bağların və əkin sahələrinin suvarılmasına xidmət edirdi [Григорьев, 1833, s. 70]. K.Nikitin də şəhərin mərkəzindən axan və suvarmada istifadə edilən çay qolları və arxlardan bəhs etmişdir. O yazır: "Naxçıvanın ortasından arx keçir. Bu arx şəhər əkinlərini və bağlarını su ilə təchiz edir. Lakin bu arxın suyu şəhər təsərrüfatına kifayət etmirdi. Çünki Naxçıvan çayı boyunca yerləşən kəndlərin əhalisi əkinlərin becərilməsi üçün bu sudan istifadə edirdi. Digər tərəfdən yaz və yay vaxtları çayın suyu azalır, bəzən büsbütün quruyurdu. Bu da şəhər təsərrüfatında su çatışmazlığına gətirib çıxarırdı. Su çatışmazlığı çox zaman şəhər əhalisinin narazılığına səbəb olurdu" [Никитин, 1882, s. 118-119]. 1831-ci ilə aid arxiv sənədində də Naxçıvançaydan çəkilmiş və şəhəri iki hissəyə ayıran bu kanaldan bəhs edilmişdir [AzDTA, fond 24, siyahı 1, iş 353, v. 5]. Qeyd edək ki, şəhərin ortasından keçən Bazar çayı XX əsrin 70-ci illərinə qədər Naxçıvan şəhərinin içərisindən axırdı. Əsrin 70-ci illərində çayın üstü beton vasitəsi ilə örtülmüşdür [Səfərli, 2018, s. 83].

## MƏHƏLLƏLƏR

Naxçıvan şəhərinin tarixi coğrafiyasını araşdırarkən onun məhəllələrinə də nəzər salmaq lazımdır. Belə ki, Naxçıvan şəhəri xanlıq dövründə inzibati cəhətdən dörd məhəlləyə bölünmüşdü: 1. Əlixan; 2. Şahab; 3. Qurdlar; 4. Sarvanlar. Onu da qeyd edək ki, bu məhəllələrinin 4-ü də günümüzdə Naxçıvan şəhərində mövcuddur, yeri və ərazisi insanlar tərəfindən bilinməkdədir. XIX əsrin əvvəllərinə gəldikdə isə bu dövrdə şəhərin inzibati bölgüsündə dəyişiklik baş verdiyini müşahidə edirik. Bu dəyişiklik, hər şeydən əvvəl, şəhərdə məhəllələrin sayının xeyli artması ilə ifadə olunur. Məhəllələrin artmasının səbəbinin biri S. Budaqovaya görə XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Naxçıvan xanlığında hakimiyyət başında olmuş Kalbalı xanın dövründə Naxçıvan şəhərinin

qala divarları xeyli möhkəmləndirilmiş və şəhərin başqa yerlərə nisbətən yaşayış üçün daha az təhlükəli olması idi. Belə ki, 1806-cı ilin sonlarında İran taxt-tacının vəliəhdi Abbas Mirzə Naxçıvan şəhərini ələ keçirmək üçün dəfələrlə cəhd göstərsə də buna müvəffəq ola bilməmişdi. Yəni, Naxçıvan şəhərinə əhalinin kəndlərdən köçüb yerləşməsi olmuşdur. İkinci bir səbəb isə şübhəsiz ki, çarizmin siyasəti olmuşdur. Məlumdur ki, Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələri bağlandıqdan sonra İran və Türkiyə ərazisindən ermənilərin kütləvi şəkildə Azərbaycan xanlıqlarında yerləşdirilməsinə başlanıldı. Köçürülən ermənilərin bir qismi Naxçıvan xanlığında, o cümlədən Naxçıvan şəhərində yerləşdirilmişdi [Budaqova, 1995, s. 34]. Bizim fikrimizə görə isə məhəllələrinin sayının artması həm başqa yerlərdən insanların Naxçıvan şəhərinə köçürülməsi və köçməsi olmuş, həm də böyük məhəllələrin kiçik məhəllələrə parçalanması hesabına baş vermişdir. Arxiv sənədlərindən aydın olur ki, XIX əsrin 30-cu illərindən sonra Naxçıvan şəhərində 13 məhəllə mövcud olmuşdur [AzDTA fond 24, siyahı 1, iş 353. v. 4]. İ.Şopen rus işğalının ilk dövrlərinə aid məlumatlarında Sarbanlar, Oruc məhəlləsi, Köhnə qala, Xoşulu, Çaparxana, Ziyilarx, Bilici, Şahab, Qala məhəllələrinin adını çəkmişdir [Шопен, 1852, s. 477]. V.Qriqoryev "Naxçıvan əyalətinin statistik təsviri"ndə Əlixan, Şahab, Sarvanlar və Qurdlar məhəllələrinin adlarını çəkir [Никитин, 1882, s. 68]. Araşdırmaçı tədqiqatçı A.Abdullayev qeyd edir ki, məhəllə adlarının bəzən o məhəllələrdə məskunlaşmış tayfa və tirələrin adları ilə bağlı olur, ya da müəyyən sənət və peşə adamlarına görə müəyyən edilirdi. Mənbələrdən də məlumdur ki, Naxçıvan şəhəri ərazisində məskunlaşmış Kəngərlilərin Cığataylı, Sarvanlar, Əlixanlı kimi tirələrinin məskunlaşdıqları məhəllələr məhz onların adları ilə adlandırılmışdır [Abdullayev, 2018, s. 33].

Bir məsələni də vurğulamaq istərdik ki, Naxçıvan şəhər XDS İK-nin 17 may 1990-cı il tarixli 202 nömrəli qərarı ilə Sarvanlar, Xıncov, Qurdlar, Ziyil arxı, Şahab, Pirqəmiş, Zaviyə, Əlixan, Xoşulu, Gomayıl, Qala, Həsənalıbəy, Qoçüstü, Xeyrabad, Atabəylər kimi məhəllə adları bərpa edilmiş, yeni yaranan məhəllə və meydanlara Əlincə, Babək, Çənlibel, Əcəmi Naxçıvani, Qarabağ meydanı, Azadlıq meydanı, Koroğlu meydanı kimi adlar verilmişdir [Bağırov, 2014, s. 19].

Araşdırmalarımızda Naxçıvan şəhərində mövcud olan bəzi məhəllə adlarının etimologiyasına, yerləşdiyi əraziyə nəzər saldıq.

## ZİYİLARX MƏHƏLLƏSİ

Naxçıvan şəhərində qədim məhəllə adıdır. XIX əsrə aid mənbələrdə Ziyilarx adı ilə qeydə alınan məhəllə adı Naxçıvançaydan çəkilib şəhərin şərq hissəsindən keçən eyniadlı arxın adı ilə bağlı yaranmışdır. Ziyilarx indiki Qonaq evinin yanından başlayıb 7 №-li məktəbin yanından Qoçüstü məhəlləsinə doğru axırmış. Yaşlı nəslin dediyinə görə arxa Zinə arx, Ziyilli arx da deyilirmiş. Birinci ehtimala görə əvvəlcə arxın suyu çox gur, ətrafı otlu-cəyənli, suyu həşəratlı olduğuna görə arxa Ziyilarx, arxın bir hissəsinə isə Ziyilarx məhəlləsi deyilmişdir. İkinci ehtimala görə isə məhəllə adı məşhur rəssam Bəhruz Kəngərlinin atası Şirəli bəyin əmisi Zili ağanın adı ilə bağlı olduğu güman edilir [Bağırov, 2014, s. 55].

## ŞAHAB MƏHƏLLƏSİ

Naxçıvan şəhərinin ən qədim məhəllələrindən birinin adıdır. Məhəllənin yerləşdiyi ərazinin relyef quruluşu, döngə və tinləri, ərazidəki qədim abidələr məhəllənin qədim tarixindən xəbər verir və bu ad yüz illərdir ki, Şahab məscidi, Şahab məhəlləsi adlarında özünü qoruyub saxlayır. XIX əsrdə Naxçıvan şəhərinin əsas kvartallarından birinin Şahab məhəlləsi olduğu haqda məlumat verirlər. Tədqiqatçı Ə.Əliyev yazır ki, "Şahab məhəlləsi çox güman ki, ərazisində vaxtilə gur su, yaxşı su olmasına görə belə adlandırılmışdır. Şahab fars dilində "gur su, keyfiyyətli su" mənasında işlənir" [Əliyev, 1980, s. 24]. A.Bağırovun isə fikrinə görə, Şahab sözünün mənşəyini "gur su" ilə bağ-

lamaq özünü doğrultmur, çünki məhəllə adı kəngərlilərin Şahbanlular tayfasının adı əsasında yaranmışdır. Şahbanlular kəngərlilərin böyük tayfalardan biri olmuş və Naxçıvan şəhərində yaşamışlar. Buna görə məhəlləyə Şahbanlular adı verilmiş və toponim canlı danışıq dilində tədricən Şahab şəklinə düşmüşdür [Bağırov, 2014, s. 51].

**ORUC MƏHƏLLƏSİ**

XIX əsrdə İ.Şopen tərəfindən Naxçıvan şəhərində qeydə alınan məhəllə adıdır [Шопен, 1852, s. 447]. Məhəllə təxminən indiki M.Ə.Sabir küçəsi ilə kəsişən döngələrin birini əhatə etmiş və XX əsrin əvvəllərində şəhərdə aparılan tikinti işləri ilə əlaqədar ləğv olunmuşdur. Məhəllə kəngərlilərin tayfa (tirə) başçılarından biri olan Oruc şəxs adı əsasında yaranmışdır.

**SARVANLAR MƏHƏLLƏSİ**

Naxçıvan şəhərinin ən mühüm məhəllələrindən biridir. Məhəllənin adı Kəngərlilərin bir qolu olan Sarvanlar sülaləsinin adı ilə bağlıdır. Tədqiqatçı T.Əhmədov sarvan sözünün İran mənşəli olub sar (dəvə) və van (qoruyan) sözləri əsasında yaranıb, dəvəçi, dəvə saxlayan anlamını ifadə etdiyini vurğulayır. Məhəllənin sakinləri XX əsrin 40-50-ci illərinə qədər daha çox dəvəçilik, arabaçılıq və faytonçuluqla məşğul olmuşlar. Sarvanlar sülaləsi müxtəlif tirələrə bölünüb ayrı-ayrı ərazilərdə yaşasalar da tayfa adını qoruyub saxlamışlar [https://az.wikipedia.org/wiki/Naxçıvan şəhərinin tarixi].

**QURDLAR MƏHƏLLƏSİ**

Naxçıvan şəhərində ən qədim məhəllə adlarından biridir. Məhəllə yarandığı vaxtdan bu günə qədər adını qoruyub saxlamış və bir çox tarixi mənbələrdə əksini tapmışdır. XX əsrdə rəsmi yazışmalarda məhəllə adına yasaq qoyulsa da, bu ad xalq arasında yaşamış və Naxçıvan şəhər XDS İK-nin 17 may 1990-cı il tarixli, 202 №-li qərarı ilə məhəllənin tarixi adı bərpa olunmuşdur. Məhəllə adı "qədim türklərin özlərinin müqəddəs əcdadı, bələdçisi, qoruyucusu, xilaskarı, qələbə, xeyir-bərəkət, hakimiyyət gətirən ilahi qüvvə kimi tapındıqları qurdun (Boz qurd) adı ilə bağlı olduğu ehtimal olunur. Qurd obrazı müsbət mənada mifologiya və folklorumuzda geniş yayılmışdır. Bundan əlavə xalq arasından toplanmış məlumatlara görə isə vaxtı ilə bu ərazilərdə ipəkqurdu yetişdirdiklərinə görə məhəllə qurdlar məhəlləsi adlandırıldığı qeyd edilir.

**XEYRABAD MƏHƏLLƏSİ**

Naxçıvan şəhərində qədimdən mövcud olan bu məhəllə adı XVI-XVIII əsrlərə aid mənbələrdə də əksini tapmışdır. Məhəllənin paralel adı Çuxur məhəllədir. Məhəllə indiki Kalba Musa çeşməsindən Edilağa gölünə tərəf olan sahəni əhatə edir. Yaşlı nəslin nümayəndələrinin söylədiyinə görə Xeyrabad xeyir (xeyirli, bərəkətli) və abad sözlərinin birləşməsi ilə əmələ gəlib, "bərəkətli, abad məhəllə" mənası bildirir. Bu fikirlə razılaşmaq olar, çünki məhəllə ərazisi daxil olmaqla Araza qədər torpağın məhsuldar, bərəkətli olması indi də məlumdur. Ona görə də məhəlləyə "xeyirli, abad" adının verilməsi mümkündür. Ancaq bu fikirlə bərabər, belə qənaətə gəlirik ki, Xeyrəbad-Xeyri şəxs adı və abad sözlərinin birləşməsi ilə yaranıb, "Xeyrinin abadlaşdırdığı yer, məskən saldığı məhəllə" mənasında işlənir. XVII-XIX əsrlərdə Naxçıvanda Xeyri şəxs adı məhsuldar şəkildə işlənib. Xeyrəbad məhəllə adı Naxçıvan şəhər XDS İK-nin müvafiq qərarı ilə (17 may 1990-cı il tarixli, 202 №-li qərarı) yenidən bərpa edilmişdir [Bağırov, 2014, s. 37].

## ƏLİXAN MƏHƏLLƏSİ

Naxçıvan şəhərində qədim məhəllə adıdır. Məhəllə Hüseyn Cavidin məqbərəsi, ev muzeyi və 5 №-li məktəbin ətrafını əhatə edir. Məhəllə adı kəngərlilərə məxsus tayfa başçısı Əlixan şəxs adına mənsubluq, aidlik bildirən -lı şəkilçisinin artırılması yolu ilə yaranmışdır. Əlixanlı tayfası "Deyhanlı, Hümbətli, Orta qışlaq, Güllüqışlaq, Yarlı qışlaq, Yazı qışlaq" kimi tirələrə ayrılmış və bu tirələr də kəngərlilərə məxsus ərazilərdə yaşamışlar. Əlixanlı məhəllə adının kəngərlilərə məxsusluğunu XVII-XX əsrlərə aid bir çox tarixi mənbələr də təsdiqləyir. [Bağırov, 2014, s. 32].

## DABBAQXANA MƏHƏLLƏSİ

Naxçıvan şəhərindəki bu məhəllə adı sənət və peşə adı əsasında yaranmışdır. Məhəllə indiki 11 №-li orta məktəbin arxa tərəfindəki Dabbaqxana çeşməsi və tarixi-memarlıq abidəsi olan Buzxana ətrafında yerləşirmiş. Dabbaqxana qədim naxçıvanlıların dəri aşılamaq, göndən müxtəlif materiallar (qayış, yəhər, yüyən və s.) hazırlamaqla məşğul olduğunu təsdiqləyir. Hazırda Dabbaqxana məhəllə adı unudulub, ancaq eyniadlı çeşmə fəaliyyətdədir.

## QOÇÜSTÜ MƏHƏLLƏSİ

XVIII əsrin sonunda şəhərin əsas məhəllələrindən biri Naxçıvançayın sağ sahilində yerləşən Qoçüstü məhəlləsi olmuşdur. Ola bilsin ki, əvvəllər bu məhəllə Naxçıvan şəhərinin əsas hissəsinə aid olmayan müstəqil yaşayış yeri olmuş, sonralar isə şəhərin böyüməsi ilə əlaqədar Naxçıvan şəhərinin məhəllələrindən birinə çevrilmişdir. Çünki, arxeoloqlar apardıqları ilkin kəşfiyyat işləri nəticəsində buranı XI-XVIII əsrlərə aid yaşayış yeri kimi qiymətləndirmişlər.

## SALLAQXANA MƏHƏLLƏSİ

Bu məhəllə də Naxçıvan şəhərində sənət və peşə ilə əlaqədar formalaşmış məhəllələrdən biri olmuşdur. Ərəbcə "sallaq" (qəssab) və farsca "xanə" (ev) sözləri əsasında yaranmışdır. Şəhərdə arabaçı, faytonçu işləyənlərin, qəssablıqla məşğul olanların əksəriyyəti bu məhəllədə yaşamışdır. Şərqdən Sarbanlar, şimaldan Xıncov məhəllələri ilə həmsərhəd olan bu məhəllənin indiki adı Çuxur məhəlləsidir. Çuxur məhəlləsi adı məhəllənin yerləşdiyi coğrafi ərazinin relyefi ilə əlaqədar olaraq formalaşmışdır [Abdullayev, 2018, s. 34].

## XOŞULU MƏHƏLLƏSİ

İ.Şopenin XIX əsr adını çəkdiyi məhəllələrdən biri Xoşulu məhəlləsi olmuşdur. R.Salayeva bu məhəllənin adını Dərbənd şəhərinin cənub qərbində yerləşən Xoşnu adlı kəndin adı ilə bağlamış və bu kənddən köçənlərin məhz bu məhəlləni kəndlərinin adı ilə adlandırması fikrini irəli sürmüşdür [Салаева, 2002, 14]. Lakin, tarixi mənbələrdə hələlik belə bir miqrasiya ilə bağlı fakta rast gəlmədiyimizdən və bunun üçün məntiqi əsas da olmadığından biz məhəllə adının bu cür izahını inandırıcı hesab etmirik. R.Salayeva Xoşulu məhəlləsinin Əlixan və Xıncab məhəllələri arasında yerləşdiyini göstərmişdir. Lakin, bizim tədqiqatlarımız göstərir ki, Əlixan məhəlləsi ilə Xıncab məhəlləsi arasında Cıdıllı, Qarağac və Xoşulu məhəllələri yerləşmişdir. Məhəllənin dəqiq sərhəddi isə belədir. Məhəllə şərq tərəfdən Qarağac məhəlləsi, qərb tərəfdən isə Xıncov məhəlləsi ilə həmsərhəd idi. Məhəllə cənubdan Sarvanlar məhəlləsinə qovuşurdu [Abdullayev, 2018, s. 35].

XIX əsrin 60-70-ci illərindən başlayaraq Çar Rusiyası tərəfindən Naxçıvan şəhərində İran və Türkiyə ərazisindən köçürülmüş erməni ailələrinin əksəriyyəti Naxçıvan şəhərinin mərkəzi hissə-

sində Cümə məscidinin ətrafında mərkəzə yaxın ərazilərdə – "Böyük bağın" qərb hissəsində Sarbanlar məhəlləsinin bir hissəsindən "Qızlar bulağı" adlanan əraziyə qədər, Zaviyə məhəlləsindəki yaşayış evlərində yerləşdirilir. Şəhərin mərkəzində yerləşən qədim məhəllələrin ərazisində erməni ailələrin yerləşdirilməsi məhəllə adlarında da dəyişikliklərə səbəb olur. Məsələn, Sarbanlar məhəlləsinin bir hissəsi erməni məhəlləsi adlanmışdır [Qənbərova, 2018, s. 132]. Bundan əlavə Naxçıvanda bir çox məhəllə adları var ki, biz onların hamısını ayrı-ayrılıqda verməк istəmədik.

XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvan şəhərinin əhalisinin artması ilə əlaqədar, şəhər ərazisi də böyüyür. Cənubda "Vağzal" binasının tikintisi ilə əlaqədar dəmir yolu boyunca vağzal ətrafı yaşayış evləri, anbarlar, sənaye binaları tikilir. Şəhərin şimalında hərbi şəhərcik salınır. Bu dövrdə şəhər ərazisi şimalda "hərbi şəhərcikdən" başlayaraq, cənubda "Vağzal" binasının ərazisinə qədər məsafəni əhatə etsə də əhali əsasən şəhər mərkəzində Köhnə qala, Şahab, Qurdlar, Pir Xamuş, Anbar, Zaviyə, Qala, Sarbanlar məhəllələrində məskunlaşmışdılar. 1905-1915-ci illərdə İrəvan bölgəsində və Naxçıvan diyarında baş verən erməni-müsəlman müharibələri nəticəsində Naxçıvan bölgəsinə eləcədə Naxçıvan şəhərinə İrəvan mahalından gələn azərbaycanlı qaçqınların sayı çoxalmış, müharibələr nəticəsində Naxçıvan bölgəsinin kənd və qəsəbələrindən şəhərə əhali axını baş vermişdir. Gəlmə əhalinin bir hissəsi məhəllələrdə, digər hissəsi isə şəhərətrafı ərazilərdə məskunlaşmağa məcbur qalmışdır. Bu dövrdə Naxçıvan şəhərində yeni məhəllələr – Xıncab, Kollu bağ, Xoylu kimi məhəllələr formalaşdı [Qənbərova, 2018, s. 133].

## NƏTİCƏ

Son olaraq qeyd etmək istərdik ki, tədqiqat apardığımız dövrdə Naxçıvan şəhərinin ərazi-sərhəd bölgüsü dəyişməmişdir. Bu dövrdə Naxçıvan şəhəri Erməni vilayətinin, İrəvan quberniyasının və Cənub-Qərbi Azərbaycan general-qubernatorluğunun əsas mərkəz şəhəri, Araz-Türk respublikasının isə paytaxtı olmuşdur. Məhəllələrinin sayı isə daxili və xarici köçürmələrdən sonra artmışdır.

## ƏDƏBİYYAT

Abdullayev, A. (2018). XIX əsr Naxçıvan şəhərinin tarixi coğrafiyası. *Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər*, 6 (95), 33-37.

Azərbaycan tarixi (4-cü cild). (2007). Elm.

Azərbaycan Dövlət Tarix Arxivi (AzDTA): fond 24, siyahı 1, iş 353 (Камеральное описание г. Нахичевана за 1831 г.)

Bağırov, A. (2014). *Naxçıvanın urbanonimləri*. ADPU-nun nəşriyyatı.

Baxşəliyev, V. (2008). *Naxçıvanın arxeoloji abidələri*. Elm.

Budaqova, S. (1995). *Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin II yarısı-XIX əsrin I qərinəsi)*. Elm.

Əliyev, Ə. (1980). *Naxçıvan şəhərində məhəllə adları. Elm və həyat*, 6, 23-24.

Əliyev, V. (2012). Naxçıvanın ilkin şəhər mədəniyyəti. *Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi (20-24 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları)*, 13-19. Əcəmi.

Əliyev, İ. (2014). *Naxçıvan bölgəsi Səfəvilər dövründə*. Elm və təhsil.

Hacıyev, İ. (2016). Azərbaycan Atabəylər dövləti və Naxçıvan. *Təfəkkür*, 3 (12), 42-54.

Hacıyev, İ. (2019). Naxçıvan ilkin şəhər mədəniyyəti və Duzdağ arasındakı paralellər. *Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər,* 2 (99).

Həbibbəyli, İ. (2012). Naxçıvanda ilkin şəhərsalma tarixinə kompleks yanaşma. *Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi (20-24 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları)*, 19-31. Əcəmi.

Həbibbəyli, İ. (2017). *Duzdağ mozaikası*. Bakı: Elm və təhsil.

Kazımov, İ. (2007). *Naxçıvan: Əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər)*. Elm.

Qənbərova, G. (2018). *Naxçıvanda məskunlaşma və şəhərsalmanın inkişafı* (1-ci cild). AFPoliqraf.

Məmmədov, R. (1977). *Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü)*. Elm.

Səfərli, F. (2018). *Naxçıvanın məscid və ziyarətgahları*. Əcəmi.

Григорьев, В.Н. (1833). *Статистическое описание Нахичеванской провинции*. Типография Деп. внеш. торг.

Никитин, К. (1882). Город Нахичевань и Нахичеванский уездъ. *Сборник материалов для описания местностей и племен Кавказа (СМОМПК)*, вып. 2, 109-142. Управление Кавказского учебного округа.

Салаева, Р. (2002). *Нахчыван – наследие архитектуры*. Азербайджан.

Сысоев, В.М. (1929). Нахичевань на Араксе и древности Нах. АССР. *Известия «Азкомстарис»а*, выпуск 4 (тетрадь 2), 123-215. Азербайджанский комитет по охране памятников старины и искусства.

Шопен, И. (1852) *Исторической памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи*. Типография Императорской Академии Наук.

https://az.wikipedia.org/wiki/Naxçıvan şəhərinin tarixi

*(AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 21.01.2026**
**Son variant 10.02.2026**